**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)-    /2019

“   ”             2019-cu il                                                                  Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Nofəl Rəhman oğlu Abdullayevin katibliyi ilə

iddiaçı XXXX oğlunun, cavabdeh XXXX qızının və cavabdehlərin vəkili XXXX qızının iştirakı ilə,

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2(008)-1331/2008 saylı mülki iş üzrə qəbul etdiyi 27 iyun 2008-ci il tarixli qətnaməsindən cavabdehlər XXXXqızı və XXXX XXXX XXXX qızı tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n   e t d i:**

İddiaçı XXXXoğlu cavabdehlər XXXXqızına, XXXXqızına və XXXX XXXX XXXX qızına qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlərin Bakı şəhəri, XXXX qəsəbəsi, XXXX küçəsində yerləşən 1 saylı evin 33 saylı mənzilinin yaşayış sahəsindən istifadə hüquqlarına xitam verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 27 iyun 2008-ci il tarixli 2(008)-1331/2008 saylı qətnaməsi ilə iddia təmin edilmişdir.

Cavabdehlər XXXXqızı və XXXX XXXX XXXX qızı apellyasiya şikayəti verərək, həmin qətnamənin ləğv edilməsi və mülki iş üzrə icraata xitam verilməsi barədə qərardad qəbul edilməsini xahiş etmişlər.

Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə prosesi onların iştirakı olmadan keçirilmiş, tərəf kimi prosessual hüquq və vəzifələrdən məhrum edilərək müdafiələrini təmin edə bilməmişlər. Bundan başqa onlar mübahisəli mənzildə qeydiyyatda olsalar da, atalarının ikinci dəfə ailə qurması və onları həmin evdən qovması nəticəsində yaşayış sahələrindən məhrum edilmişlər və kirayələrdə yaşayırlar. Eyni tərəflər arasında uzun müddət məhkəmə çəkişmələri olmuş, iddiaçının cavabdehlərin həmin mübahisəli mənzildən istifadə hüququn itirilməsi barədə çəkişmələri olmuş və bu barədə qanuni qüvvəsini almış qətnamələr mövcud olduğu halda iddiaçının iddiasını yenidən 6 il keçdikdən sonra cavabdehlərə qarşı eyni tələblə məhkəməyə müraciət etməsi qanunsuzdur. Belə ki, qanuni qüvvəyə minmiş Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 14 may 2002-ci il tarixli 2-795/2002 saylı qətnaməsi ilə iddiaçı XXXXoğlunun cavabdehlər XXXXqızına, XXXX XXXX XXXX qızına və XXXXqızına qarşı yaşayış sahəsindən istifadə hüquqlarının itirilməsinə dair iddia tələbi təmin edilməmişdir. Bundan başqa qanuni qüvvəyə minmiş Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 13 iyun 2003-cü il tarixli 2-644/2003 saylı qətnaməsi ilə iddiaçı XXXXqızının cavabdeh XXXXoğluna qarşı mübahisəli mənzilə köçürülməsi dair iddiası, XXXXqızının cavabdeh XXXXoğluna və başqalarına qarşı yaşayış hüququnun tanınmasına dair qarşılıqlı iddia üzrə iddiaçı XXXXoğlunun XXXXqızına qarşı yaşayış sahəsinə hüququn tanınması, mənzilin bölünməsi və yaşayış sahəsinə müqavilənin dəyişdirilməsi dair qarşılıqlı iddia üzrə A.XXXXnın iddia tələbi təmin edilərək, oğlu Vəliyev İzzət Möhübbət oğlu ilə birgə mübahisəli Bakı şəhəri, XXXX

qəsəbəsi, XXXX küçəsi, 1 saylı evin 33 saylı mənzilinə yaşayış hüququn tanınması qət edilmişdir.

Apellyasiya baxışı zamanı müəyyən olunmuşdur ki, cavabdeh XXXXqızı 29 iyun 2012-ci il tarixdə vəfat etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin 16 yanvar 2019-cu il tarixli 2(103)-786/2019 saylı qərardadı ilə cavabdeh XXXXqızına aid hissədə mülki işin icraatına xitam verilmişdir.

Məhkəmə iclasında cavabdeh XXXX qızı və cavabdehlərin vəkili XXXX qızı apellyasiya şikayətlərini müdafiə etdilər, iddiaçı XXXX oğlu isə apellyasiya şikayətinə etiraz etdi.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməməlidir.

Belə ki, iş materiallarına əsasən müəyyən olunur ki, mübahisəli mənzil Bakı şəhəri, XXXX qəsəbəsi, XXXX küçəsindəki X saylı evin XX saylı mənzilindən ibarətdir. Həmin mənzil Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sosial İnkişaf İdarəsinin balansındadır və mənzilin icarədarı XXXX oğludur. Həmin mənzildə XXXXoğlu, 2003-cü il təvəllüdlü qızı İlahə, 2004-cü il təvəllüdlü oğlu XXXX, keçmiş arvadı XXXX qızı və qızları XXXX və XXXX daimi qeydiyyatdadırlar. Cavabdehlər XXXX qızı və XXXX XXXX XXXX qızı iddiaçının övladlarıdır.

İddiaçı bildirir ki, cavabdehlər XXXX XXXX və XXXX XXXX ailə quraraq gəlin köçmüşlər. Hal-hazırda o, mübahisəli mənzildə öz ailə üzvləri ilə, yəni iki uşaqları ilə birlikdə yaşayır. Həmin mənzildə cavabdehlərə məxsus heç bir əmlak yoxdur. Cavabdehlər uzun müddət fasiləsiz olaraq mübahisəli mənzildə yaşamadıqlarından və onların daimi yaşayış yerləri olduğundan mübahisəli mənzilə olan istifadə hüquqlarına xitam verilməlidir.

Cavabdehlər XXXX XXXX XXXX qızı və XXXX qızı iddiaya etiraz edir, etirazlarını apellyasiya şikayətində göstərilənlərlə əsaslandırır və əlavə olaraq bildirirlər ki, 2012-2013-cü ilədək mübahisəli mənzildə yaşamışlar, sonra isə iddiaçı tərəfindən qovulmuşlar.

Məhkəmə kollegiyası hesab edir ki, cavabdehlər XXXX XXXX XXXX qızına və XXXX XXXX XXXX qızına aid hissədə iddia əsaslıdır.

Belə ki, Mülki Prosessual Məcəllənin 217.2-ci maddəsinin tələblərini nəzərə alaraq kollegiya hesab edir ki, hazırkı mübahisənin həllində 01 oktyabr 2009-cu il tarixədək qüvvədə olmuş Mənzil Məcəlləsinin müddəaları tətbiq edilməlidir.

Həmin Məcəllənin 60-cı maddəsinin 6-cı hissəsinə görə şəxsin müəyyən edildiyindən artıq müddətə başqa yerə getməsi nəticəsində yaşayış sahəsindən istifadə hüququnu itirmiş hesab edilməsi, kirayədarın və ya həmin sahədə yaşamağa qalmış digər daimi istifadəçilərin iddiası üzrə məhkəmə qaydasında həyata keçirilir.

Həmin Məcəllənin 87-ci maddəsinin 2-ci hissəsinə görə icarədar və onun ailə üzvləri daimi yaşamaq üçün başqa yaşayış məntəqəsinə getdikdə və ya həmin yaşayış məntəqəsində digər yaşayış sahəsinə köçdükdə, yaşayış sahəsinin icarə müqaviləsi onların getdiyi və ya köçdüyü gündən pozulmuş hesab edilir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş XXXX Fəridə Məmmədovna öz ifadəsində bildirmişdir ki, o, 1969-cu ildən Bakı şəhəri, XXXX qəsəbəsi, XXXX küçəsində yerləşən XX saylı evin XX saylı mənzilində yaşayır və XXXX XXXX qonşudur. XXXX qəsəbəsi, XXXX küçəsində yerləşən X saylı evin XX saylı mənzilində 8 ildir ki, XXXX XXXX və onun ailə üzvləri olan XXXX XXXX ilə onun iki azyaşlı uşaqları yaşayır. Həmin mənzildə 8 ildən artıq müddətdir ki, nə X.XXXXun keçmiş həyat yoldaşı XXXX XXXX, nə də ki, X.XXXXun qızları XXXX XXXX ilə XXXX XXXX yaşamırlar və mənzildə onlara məxsus heç bir əmlak yoxdur. Ümumiyyətlə o, XXX, XXXX və XXXX XXXXları heç vaxt mübahisəli mənzildə görməyib və onlar həmin mənzilə gəlib getmirlər.

Şahid qismində dindirilmiş XXXX qızı da oxşar məzmunlu ifadə vermişdir.

İşin hallarına qiymət verərək kollegiya belə nəticəyə gəlir ki, həm şahid ifadələrinə, həm də cavabdehlər XXXX XXXX XXXX qızının və XXXX qızının özlərinin etirafına görə mübahisəli mənzildə yaşamadıqlarından Mənzil Məcəlləsinin qeyd olunan müddəalarına əsasən onların mübahisəli mənzilə olan istifadə hüquqlarına xitam verilməlidir.

Məhkəmə kollegiyası qeyd edir ki, cavabdehlər XXXX qızı və XXXX XXXX XXXX qızının müvəqqəti deyil, məhz daimi olaraq mübahisəli mənzildən köçmələri faktı tam təsdiq olunur. Çünki XXXX qızı və XXXX XXXX XXXX qızı mübahisəli mənzildən özlərinin etirafına görə köçdükləri 2012-2013-cü ildən hazıra kimi, yəni 6-7 il müddətində mənzilə köçürülmə barədə iddia qaldırmamış və ya mənzildən istifadəyə maneə törədilməsi ilə bağlı hər-hansı orqana şikayət etməmişlər. Eyni zamanda hər iki cavabdehin öz ailəsi var və nikahları pozulmamışdır. Apellyasiya şikayətində də etiraf etmişlər ki, hazırkı qətnamədən yalnız şəxsiyyət vəsiqəsini alan vaxt məlumat almışlar.

Cavabdehlər XXXX qızı və XXXX XXXX XXXX qızının dəlillərinə dair kollegiya qeyd edir ki, Mülki Prosessual Məcəllənin 261.0.2-ci maddəsinə əsasən eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraatın xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa hakim iş üzrə icraata xitam verir. Lakin Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 14 may 2002-ci il tarixli /2002 saylı qətnaməsi üzrə məhkəmə mübahisəsi eyni tərəflər arasında və eyni predmet barəsində baş versə də, hazırda iddiaçının istinad etdiyi əsaslar dəyişmişdir. Belə ki, iddiaçı həmin mübahisədən müəyyən müddət (5 il) keçdikdən sonra cavabdehlərin mübahisəli mənzildən daimi olaraq köçüb getmələrinə istinad etmiş və bu barədə sübutları da məhkəməyə təqdim etmişdir. Bu baxımdan kollegiya hesab edir ki, hazırkı iş üzrə icraata xitam verilməsi üçün əsaslar mövcud deyildir. Həmçinin məhkəmə bildirişləri cavabdehlərin rəsmi qeydiyyatda olduqları ünvana göndərilmişdir.

Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsinin qətnaməsi (cavabdehlər XXXX qızı və XXXX XXXX XXXX qızına aid hissədə) qanuni və əsaslı olmaqla işin hallarına uyğundur, cavabdehlərin dəlilləri isə əsassızdır və mahiyyətcə düzgün olan birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi üçün əsas ola bilməz.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.1, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t e t d i:**

Cavabdehlər XXXX qızı və XXXX XXXX XXXX qızı tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməsin.

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2(008)- /2008 saylı mülki iş üzrə qəbul etdiyi 27 iyun 2008-ci il tarixli qətnaməsi cavabdehlər XXXX qızı və XXXX XXXX XXXX qızına aid hissədə dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza
Hakimlər: imzalar
Əsli ilə düzdür:
Hakim Raqib Qurbanov